# Azərbaycanlıların 1948-1953-cü illər deportasiyası necə baş verdi?

## Katolikos VI Gevork və Ermənistan K(b)P MK-nın katibi Qr.Arutyunov “Böyük Ermənistan” xülyasında



Əziz Ələkbərli
Millət vəkili

(əvvəli ötən sayımızda)

***Lakin erməni xalqı köməksiz qalmaqda davam etdi, müqəddəs vətənindən qovulub, bütün dünyaya səpələndi. Erməni xalqının başına gətirilən bədbəxtliklərin sonucunda 1920-ci ildə türklər namərdcəsinə hücum etdilər və Ermənistanın həyati əhəmiyyətli hissələri olan Qars, Ərdəhan və Sürməlini zəbt etdilər.***

***Yeni yaranmış Sovet İttifaqı erməni torpaqlarının kiçik hissəsini azad etməklə orada yaşayan erməniləri məhv olmaq təhlükəsindən qurtardı.***

***Ermənistan Sovet Respublikası belə yarandı və sülh və azadlıq şəraitində yaşadığı 25 il ərzində yaralarına məlhəm qoyaraq, inkişaf edir, çiçəklənir.***

***İndi xalqların taleyi Birləşmiş Demokratik Dövlətlərin əlindədir. Ədalətin və humanizmin qələbəsi naminə milyonlarla insanın özünü qurban verdiyi bu qanlı müharibədən sonra, şübhəsiz ki, böyük və qüdrətli dövlətlər xalqların qırğınının təkrar olunmaması üçün bütün şər və zorakılıq ocaqlarını söndürməyə borcludurlar. Böyük Dövlətlər keçmişin ədalətsizliklərini düzəltməli, dostları və düşmənləri düzgün ayırd etməli, kim ki incidilib, zərər çəkib, kim ki, özünü borc naminə qurban verib ona haqq qazandırmalıdırlar.***

Keçmişdə və yaxın vaxtlarda Türkiyədən qovulmuş və bütün dünyanı sərgərdan dolaşan erməni qaçqınları, onlarla birlikdə bütün ermənilərin qədim Patriarxlığı ədalətin varlığına bu inamla Sizə müraciət edir və ermənilərin qanları ilə suvardıqları və sonra dəyərli mədəniyyət abidələri ilə bürüdükləri öz tarixi vətənlərinə haqqlarını tanımağınızı xahiş edir.

Biz Türkiyə tərəfindən zorla zəbt edilmiş və indi boş qalmış torpaqları ondan almağınızı, bu torpaqları öz həqiqi sahiblərinə qaytarmağınızı və bu torpaqları Sovet Ermənistanına birləşdirmənizi xahiş edirik. Bu, qaçqın ermənilərə öz qan qardaşları ilə çiyin-çiyinə yaşamağa, çalışmağa və milli mədəniyyətlərini inkişaf etdirməyə imkan verər.

***Bu, demokratiyanın qələbəsi və Birləşmiş Demokratik Dövlətlərin işi naminə erməni xalqının verdiyi böyük qurbanlar və fədakarlıq müqabilində ədalətli mükafat olardı. Erməni xalqı qələbə naminə bütün cəbhələrdə igidliklə vuruşmuşdur və onun öz gözlədiklərinə qarşılıq bu dəfə də aldadılması ədalətsizlik olardı.***

***Ermənilərin müqəddəs hüquqlarının bu dəfə də gerçəkləşməməsini bütün dünya ədalətsizlik hesab edərdi.***

Yunanıstan və Serbiya, Rumıniya və Bolqarıstan, Livan və Albaniya, Krit adaları və Fələstin Türkiyənin işğalından azad edilib. Nə üçün, hansı ağlabatan səbəbə görə bəşəriyyət əzabkeş Ermənistanın ədalətli haqqını tanımaqdan imtina etməlidir? Böyük dövlətlər özlərinin təntənəli vədlərinin və elan etdikləri prinsiplərin həyata keçirilməsi naminə sivilizasiyanın böyük aktını, müqəddəs insansevərlik işini gerçəkləşdirməli, daha dəqiq desək, öz klassik dilini və ədəbiyyatını yaratmış, monumental incəsənət abidələri ucaltmış və ümumbəşər mədəniyyətinə qiymətli töhfələr vermiş qədim mədəni xalqlardan birinin qalıqlarını tamamilə məhv olmaqdan qurtarmalıdırlar.



Erməni məsələsini iflasa uğratmaq üçün türklər və onların dostları bəyanat verirlər ki, guya müasir demokratik Türkiyə əvvəlki Türkiyəyə oxşamır və ermənilər başqa ölkələrdən özlərinin Türkiyədəki əvvəlki yaşayış yerlərinə qayıda bilərlər. Lakin erməni xalqı keçmişin acı təcrübəsindən bilir ki, köhnə və yeni Türkiyə yoxdur, bu həmin Türkiyədir ki, vədlərinin əhəmiyyəti Avropa diplomatiyasına və erməni xalqına yaxşı məlumdur.

> *İndi xalqların taleyi Birləşmiş Demokratik Dövlətlərin əlindədir. Ədalətin və humanizmin qələbəsi naminə milyonlarla insanın özünü qurban verdiyi bu qanlı müharibədən sonra, şübhəsiz ki, böyük və qüdrətli dövlətlər xalqların qırğınının təkrar olunmaması üçün bütün şər və zorakılıq ocaqlarını söndürməyə borcludurlar. Böyük Dövlətlər keçmişin ədalətsizliklərini düzəltməli, dostları və düşmənləri düzgün ayırd etməli, kim ki incidilib, zərər çəkib, kim ki, özünü borc naminə qurban verib ona haqq qazandırmalıdırlar*

Yeganə çıxış yolu Türkiyə Ermənistanının azad edilməsi və Sovet Ermənistanına birləşdirilməsidir.

Biz yenidən xahiş edirik ki, bütün ermənilərin doğma ölkələrində birləşməsinə nail olunması üçün Türkiyədəki erməni vilayətləri Sovet Ermənistanına birləşdirilsin və onlara sülh və təhlükəsizlik şəraitində öz durdurulmuş mədəni fəaliyyətlərini davam etdirməyə, danılmaz yaradıcılıq potensialını üzə çıxarmağa imkan verilsin.

***Bu böyük və ədalətli işin müvəffəqiyyəti naminə mən dua edərək Qadir Allahı köməyə çağırıram. Qoy Həqq-Təala Sizə kömək olsun, Sizin düşüncə və iradənizi xeyirin qələbəsinə yönəltsin və qoy O, müasir Türkiyə rəhbərlərinin vicdanını oyatsın ki, onlar həm özlərinin, həm də sələflərinin günahlarını yusunlar, maarif və sivilizasiya əsrində həqiqi mənada dinc, əməksevər və yaradıcı bir xalqa münasibətdə edilən böyük ədalətsizliyə son qoyulsun.***

VI GEVORK

Bütün ermənilərin katolikosu.

27 noyabr 1945-ci il. Eçmiədzin”.

***

“RK(b)P MK-ya Yoldaş Stalinə

İosif Vissarionoviç!

Ermənistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-nin tərkibinə daxildir. Bu vilayətin əhalisi əsasən ermənilərdir. 153 min nəfər əhalidən 137 mini ermənidir.

Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsinin təsərrüfatı ilə eyniyyət təşkil edir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi onun inkişafına xeyli köməklik göstərər, təsərrüfata rəhbərlik işini yaxşılaşdırardı. Ermənistanın respublika orqanları tərəfindən rəhbərlik şəraitində əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmət işi daha da güclənərdi.

Dağlıq Qarabağ vilayətinin Ermənistanın tərkibinə qatılması yerli kadrlara Ermənistanın ali məktəblərində öz təhsillərini davam etdirməyə imkan verərdi. Digər tərəfdən, Ermənistan SSR Dağlıq Qarabağdan öz işgüzarlığı ilə seçilən milli kadrlar əldə edə bilərdi. Halbuki hazırda onlardan Azərbaycanda, təbii ki, tam istifadə olunması mümkün deyil.

***Dağlıq Qarabağ əhalisinin bu istəyindən çıxış edərək, Ermənistan MK-sı və Xalq Komissarları Soveti Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti şəklində Ermənistan SSR-nin tərkibinə qatılması təklifini ÜİK(b)P MK-nın və İttifaq Hökumətinin müzakirəsinə təqdim edir.***

Bu məsələnin müsbət həlli halında Ermənistan MK-sı və Xalq Komissarları Soveti Qarabağın keçmiş mərkəzi olan və Sovet hakimiyyətinin qurulması ərəfəsində dağıdılmış Şuşa şəhərinin bərpası təklifi ilə Hökumətə müraciət edəcəkdir.

Ermənistan K(b)P MK-nın katibi Qr.Arutyunov

Noyabr 1945-ci il“.

Həmin vaxt SSRİ rəhbərliyi VI Gevorkun istəyini həyata keçirməkdən üçün Türkiyəyə qarşı müharibə etmək istiqamətində bir sıra ciddi təşəbbüslər edir, lakin Türkiyə məlum tarixi diplomatik gedişlərlə SSRİ rəhbərliyinə bu fürsəti vermir və erməni baş keşişinin arzusu gözündə qalır.



***Moskvanın ermənipərəst oyunları və Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırovun cəsarətli addımı***

***Qr.Arutyunovun məktubu isə baxılmaq üçün İ.Stalin tərəfindən o vaxtkı ÜİK(b)P MK katibi G.Malenkova ünvanlanır. G.Malenkov da öz növbəsində həmin məktuba münasibət bildirmək üçün 28 noyabr 1945-ci il tarixində onu Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırova ünvanlayır.***

***Malenkovun məktubunun mətni:***

(ardı gələn sayımızda)